# Nizami və Nəvai yaradıcılığında Fərhad surəti

**Şəhla Məcidova**
Filologiya üzrə fəlsəfə doktoru, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
Azərbaycan. E-mail: shahla.majidova@mail.ru
https://orcid.org/0000-0003-3842-0361

**Annotasiya.** Şərqin iki böyük söz ustadı – Nizami Gəncəvi və Əlişir Nəvainin yaradıcılığına həsr olunmuş bu məqalədə onların yaratdığı Fərhad surətindən bəhs olunur. Hər iki şair Fərhad obrazında öz ideyalarını verməyə çalışmışdır. Əgər Fərhad obrazı Nizaminin "Xosrov və Şirin" poemasında ikinci plandadırsa, Nəvai sələfindən fərqli olaraq, onu öz poemasının baş qəhrəmanı etmiş və əsəri "Fərhad və Şirin" adlandırmışdır. Hər iki əsərdə Fərhad obrazı mərd, cəsur, eşqi yolunda özünü qurban verən fədakar aşiq olaraq yaradılsa da, fərqli xüsusiyyətləri də vardır.
**Açar sözlər:** sələf, insan, külüng, sədaqət, mükalimə, Bisütun, xəzinə, Çin, cəsarət

http://dx.doi.org/10.29228/edu.165
**Məqaləyə istinad:** Məcidova Ş. (2020) *Nizami və Nəvai yaradıcılığında Fərhad surəti.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 123-127
**Məqalə tarixçəsi:** göndərilib – 01.04.2020; qəbul edilib – 09.04.2020

# The image of Farhad in the works of Nizami and Navai

**Shahla Majidova**
Doctor of Philosophy in Philology, Institute of Manuscripts named after Mohammad Fuzuli. Azerbaijan.
E-mail: shahla.majidova@mail.ru
https://orcid.org/0000-0003-3842-0361

**Abstract.** The article is dedicated to the work of two great east masters of – Nizami Ganjavi and Alisher Navai and Farhad character. Both poets tried to spread their ideas in the image of Farhad. If Farhad's character is in the foreground in Nizami's poem "Khosrov and Shirin", unlike his predecessor, Navai made him the protagonist of his poem and called his work "Farhad and Shirin". Despite the fact that in both poems the image of Farhad was created as a brave, courageous, selfless lover, there are also various features.
**Keywords:** predecessor, man, picker, fidelity, dialogue, Bisutun, treasure, China, courage

http://dx.doi.org/10.29228/edu.165
**To cite this article:** Majidova Sh. (2020) *The image of Farhad in the works of Nizami and Navai.* «Comparative Literature Studies», Issue I, pp. 123-127
**Article history:** received – 01.04.2020; accepted – 09.04.2020

## Giriş / *Introduction*

Klassik Şərq ədəbiyyatının ən parlaq səhifələrindən birini də sələflər və xələflər mövzusu təşkil edir. Artıq əsrlərdir ki, bu mövzuda yazıb-yaratmış ədiblər öz ustadlarına – sələflərə sonsuz ehtiram və heyrətini onların əsərlərinə nəzirə yazarkən ifadə etmişlər. İlk sələflərdən biri kimi dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) adı öndə gedir, desək, yanılmarıq. Nizami, həqiqətən də bir sələf olaraq, özündən sonra bir məktəb qoydu ki, bu məktəbin davamçıları da onun adına layiq xələf oldular və əksəriyyəti öz "Xəmsə"sini yaradaraq, bu mövzuda yazılan əsərləri məzmunca daha da genişləndirdilər. "Xəmsə" yaradan Nizaminin xələflərindən biri də dahi özbək şairi Əlişir Nəvaidir (1441-1501).

## Əsas hissə / *Main Part*

Nizamidən düz üç əsr zaman fərqi ilə yaşayan Nəvai "Xəmsə"sini yazarkən, Nizami əsərlərinin ümumi xüsusiyyətlərini saxlasa da, beşliyə daxil olan əsərlərinin məzmununda və obrazlarda fərqliliklər etmişdir. Bu baxımdan hər iki şairin yaratdığı Fərhad surəti diqqəti daha çox cəlb edir. Fərhad obrazı ilk dəfə olaraq, ədəbiyyatda Nizami tərəfindən "Xosrov və Şirin" poemasında yaradılmışdır. Lakin Nizami Fərhad haqqında çox az məlumat verir. Çünki Nizaminin əsərinin əsas qəhrəmanı Fərhad yox, Xosrovdur. Odur ki, onun kim və haralı olması qeyd edilmir, Fərhad sadəcə daşyonan, mahir bir sənətkar, külüngü ilə daşlarda, qayalarda əsrarəngiz təsvirlər yaradan bir memar olaraq verilib. O, hündür, cüssəli, yaraşıqlı bir gəncdir.

*Dedi: "Fərhad adlı bir cavan vardır,*
*Usta mühəndisdir, bir sənətkardır.*
*...Külünglə başlarkən sənətkarlığa,*
*Yeri quş qayırıb yüklər balığa.*
*Qızıl bir rəng alır işindən güllər,*
*Daşlara dəmirlə Çin nəqşi çəkər.*
*Sənətinin səsi yayılmış Ruma,*
*Tişəylə qart daşı döndərir muma [1, s.183].*

Nəvai isə Fərhadı sadəcə bir daşyonan kimi təqdim etmir, o, öz poemasında Fərhad surətini Nizami və Dəhləvi əsərlərindən tamamilə fərqli olaraq, bir şahzadə kimi təqdim edir. Lakin şahzadə olması onun zəhmətə, əməyə qatlaşmasına mane olmur. Nəvainin Fərhadı da cəsur, cəngavər və igiddir. Nəvainin Fərhadı Nizaminin Xosrovu kimi ən kiçik yaşlarından dövrünün bütün elm və fənlərini öyrənməklə məşğul olur. O, tədricən fəlsəfə, hikmət, heyət, nücum, riyaziyyat, ilahiyyat elmlərinə yiyələnir, ruhən və cismən hərtərəfli inkişaf edir:

*Elmi vərəqlədi, elə ki, bir-bir,*
*Bildi dilavərlik silahı nədir.*
*O hər hansı işə meyil etsə əgər,*
*Çətinlik çəkmədən onu düzəldər.*
*...Elm dünyasında bir parlaq gövhər,*
*Qüvvət aləmində göstərər hünər.*
*Heç aydı özünü, əbcəd oxur tək,*
*Nəinki elmdə, gücdə də gerçək [2, s.37-38].*

Fərhad həm də mətin, məğrur bir aşiqdir. "Xosrov və Şirin"də Fərhad süd arxı çəkdirmək istəyən Şirinə ilk baxışdan aşiq olur və bu eşqi uğrunda ölməyə belə hazır olur. Bu məhəbbət onu

xariqələr yaratmağa, hünərlər göstərməyə ruhlandırır. O, qısa bir müddətdə Şirin üçün süd arxını çəkir və təbii ki, bunun müqabilində heç bir mükafat gözləmir. Onun mükafatı Şirinin sevgisi olardı ki, bu da qeyri-mümkün idi. Şirin ona təşəkkürünü bildirib sırğalarını verəndə, Fərhad özünü təhqir olunmuş hesab edir:

*Fərhad o xəznəyə deyib "Afərin!"*
*Alıb ayağına atdı Şirinin.*
*Tez çıxdı qəsrdən, qaçdı çöllərə,*
*Dəniztək göz yaşı axıtdı yerə.*
*Eşqini duyarlar deyə, qorxaraq*
*Mərdliklə gəzirdi insandan uzaq [1, s.187].*

Qeyd etdiyimiz kimi, ümumi məzmun və quruluş baxımından Nizaminin "Xosrov və Şirin"i ilə Nəvainin "Fərhad və Şirin"i arasında oxşarlıq o qədər də çox deyil. Başlanğıcdan Nəvai öz əsərinin quruluşunun tərkib hissələrini tamamilə Nizamidən fərqli surətdə qoyduğu kimi, məhəbbət mövzusunda da fərqli mövqe tutmuşdur. Nizamidə Fərhad iş üçün saraya dəvət olunanda Şirini görüb aşiq olursa, Nəvainin əsərində Fərhad Şirinin xəyalını güzgüdə görüb aşiq olur:

*Fərhadın xəyalı durduğu yerə,*
*Sürürkən atını o birdən-birə,*
*Onun gözlərinə baxdı o xəyal,*
*Bürüdü timsalı qəribə bir hal.*
*Yaralı maraltək ünü ucaldı,*
*Bir nalə çəkərək yıxılıb qaldı.*
*Fərhad onu belə gördüyü zaman,*
*Baxmaq həvəsilə dayandı bir an.*
*Yaxın gətirirkən güzgü timsalı,*
*Göründü dilbərin aytək camalı.*
*Öz timsalı kimi nalə çəkərək,*
*Fərhad yerə düşdü cansız cəsədtək [2, s.117].*

Nizamidə Fərhadın sevgisi qarşılıqlı deyildi və Fərhad Şirinin Xosrovu sevdiyini bilirdi. Nizaminin Şirinindən fərqli olaraq, Nəvainin Şirini ilk görüşdə Fərhada aşiq olur, onu saraya aparıb eşq elan edir, aşiq və məşuqə sona kimi bu təmiz və ilk məhəbbətlərinə sadiq qalırlar.

Nizami Fərhadın daxili aləmini oxucusu qarşısında daha yaxşı açmaq, yüksək mənəvi dəyərlərə sahib olduğunu göstərmək üçün onu Xosrovla qarşılaşdırır, Fərhadın qətiyyəti və əzmi Xosrovla dialoqunda bütün aydın olur. Fərhadın işindən və Şirinə olan məhəbbətindən xəbər tutan Xosrov Fərhadı saraya dəvət edir, onu bu sevdadan çəkindirmək üçün müxtəlif yollara əl atır. Əvvəl ona var-dövlət, qızıl təklif edir, bu yolla heç nə əldə etmədikdə rəqibini sözlə susdurmaq istəyir. Lakin Xosrov burada da məğlub olur. Xosrovla Fərhadın deyişməsi səhnəsində Xosrovun xarakterindəki cılızlıq, Fərhadın isə mənəvi ləyaqəti və fədakarlığı daha qabarıq şəkildə üzə çıxır. Fərhadın daxili dünyasının nə qədər zəngin, nə qədər yüksək və nə qədər pak olduğunu hətta rəqib olsa belə Xosrov heyran qalaraq özü etiraf edir:

*Xosrov nə nüktəni edirdisə yad,*
*Cavabı nüktəylə verirdi Fərhad.*
*Həzərata dedi: "Ta bu günəcən*
*Belə hazırcavab görməmişəm mən.*
*Madam ki, qızıldan qaçdı, çəkindi,*
*Daşla sınayarıq biz onu indi" [1, s.194].*

Nəvainin də Fərhadı Xosrovla görüşür. Onun Xosrovla görüşünü Nəvai iki rəqibin üz-üzə gəlməsi kimi tərənnüm edir. Fərhad ilə Xosrovun mükaliməsini iki bərabərhüquqlu sərkərdənin danışığı kimi verir. Fərhad Xosrovun qarşısında əsir olsa da, öz mənliyini, vüqar və mətanətini itirmir. Xosrovun suallarına lazım bildiyi kimi cavablar verir:

*Şah neçə çətinə çəkdi xitabı,*
*O qədər asanca verdi cavabı.*
*Fərhadı mərdanə bir natiq gördü,*
*O danışmayırdı, gövhər düzürdü.*
*Xosrovun qəlbinə od düşdü kindən,*
*Tutuşdu varlığı lap qəzəbindən [2, s.208].*

Nizaminin Fərhadı Xosrovun qarşısında əyilmir. Xosrov onun qarşısına çətin bir şərt qoyur, ona Bisütun dağını çapıb oradan yol açmağı tapşırır ki, bu da çox çətin iş idi. Lakin Şirinə olan məhəbbəti Fərhadı bu işə başlamağa qol-qanad verir və işin öhdəsindən gəlir. Xosrov Fərhada məğlubiyyətini tək söz savaşında deyil, məhəbbətində də olacağını bildiyi üçün Fərhadı aradan götürməyi qərara alır. Bunun üçün silaha ehtiyac da qalmır. Sadəcə, Şirinin öldüyünü söyləmək yetər. Həyatından çox sevdiyi Şirini itirmək onunçün yaşamağın mənasızlığı demək idi və bu ayrılığa dözə bilməyən Fərhadın ürəyi partlayıb ölür:

*Olmasın gündüzüm gecə nə sayaq?*
*Sönmüş bu dünyaya nur saçan çıraq!*
*Sönmüşdür çırağım, soyuqdur ahım,*
*Batıb getdi ahım, o son pənahım.*
*Şirinə ədəmdə qovuşaram mən,*
*Ədəm diyarına tez qoşaram mən."*
*Üzülüncə əli o dildarından*
*“Şirin! Şirin!” deyib, yazıq verdi can [1, s.207-208].*

Eyni süjeti saxlayaraq, Nəvainin də Fərhadı Xosrovun məkrli niyyəti ilə öldürülür. Fitnəkar qarı Fərhadın yanına gedir. Xosrovla Məhinbanunun barışdığını, Xosrovun Şirinlə nikahı və Şirinin bu nikahdansa ölümü üstün tutub özünü öldürməsi xəbəri Fərhadı sarsıdır və Şirinsiz yaşamağın heç bir mənası qalmadığını söyləyir:

*Çılğın bir nərəylə səsləndi Fərhad,*
*Dedi: “Könlüm evi edildi bərbad,*
*Bir quru canım var, yar aldı onu.*
*Aldı, atəşlərə saldı yar onu.*
*Duysun ki, nuş etdi könül qanımı,*
*Buraxsın möhnətdə üzgün canımı”.*
*Söyləyib dünyadan əbədi getdi,*
*Ədəm dünyasına hərəkət etdi [2, s.259].*

Fərhad “Xosrov və Şirin”də ikinci dərəcəli surətdir. Əsərdə yalnız bir hissədə görünür. Amma bu, Fərhadın oxucularda diqqətini cəlb etməyə, dərin rəğbət hissi oyatmağa da kifayət edir, onlarda özünə qarşı dərin sevgi hissi yaradır. Fərhad öz eşqinin böyüklüyü, məğrurluğu, yüksək mənəvi keyfiyyətləri ilə Xosrov surətindən daha çox yadda qalır.

Nəvai isə Fərhad obrazında öz xalqının, öz vətəninin qəhrəman oğlunu tərənnüm edir, həm də əməksevən, elmə, sənətə qiymət verən və öz qollarının qüvvəti ilə quruculuq işlərində fədakarlıqla çalışan, bütün ağır və çətin işlərin öhdəsindən gələ bilən bir zəhmətkeş insanın təsvirini vermişdir.

**Nəticə / *Conclusion***

Hər iki əsərdə – həm "Xosrov və Şirin"də, həm də "Fərhad və Şirin"də böyük məhəbbətlə təsvir edilən Fərhadın cismani ölümü təəssüf doğursa da, yüksək keyfiyyətlərə sahib olmasını, sonda öz sevgisi uğrunda canını fəda etməsini onun mənəvi qələbəsi hesab etmək olar. Məhz bu mənəvi qələbə sonralar da onun digər əsərlərinin baş qəhrəmanı olması üçün bir zəmin yaratmışdır və onu simvola çevirmişdir.

**Ədəbiyyat / *References***

1. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, "Yazıçı", 1982.
2. Əlişir Nəvai. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004.

## Образ Фархада в творчестве Низами и Навои

**Шахла Меджидова**
Доктор философии по филологии, Институт Рукописей имени Мухаммеда Физули. Азербайджан.
E-mail: shahla.majidova@mail.ru

**Резюме.** Статья посвящена творчеству двух великих мастеров Востока – Низами Гянджеви и Алишира Навои и образу Фархада в поэмах этих поэтов. Оба поэта пытались распространить свои идеи в образе Фархада. Если образ Фархада находится на втором плане в поэме Низами «Хосров и Ширин», в отличие от своего предшественника, Навои сделал его главным героем своего произведения и назвал свою поэму «Фархад и Ширин». Несмотря на то, что в обеих поэмах образ Фархада создан как смелый, храбрый, самоотверженный любовник, также есть различные особенности.
**Ключевые слова:** предшественник, человек, кайло, верность, диалог, Бисутун, сокровище, Китай, смелость